# Azərbaycan sərhədçisi Vətənə xidmətdən qürur duyur




**Suverenliyin, ərazi bütövlüyünün və milli təhlükəsizliyin əsas atributlarından olan dövlət sərhədlərinin etibarlı mühafizəsi hər bir ölkənin dövlətçilik tarixində xüsusi yer tutur.**

Azərbaycan üçün bu tarix 18 avqust 1919-cu ildən başlayır. Bu gün Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin ölkə sərhədlərinin mühafizəsi haqqında mühüm qərar qəbul etməsi ilə əlamətdardır. Məhz bu tarixi günün əhəmiyyətini nəzərə alan Ümummilli Lider Heydər Əliyevin 16 avqust 2000-ci il tarixli Sərəncamı ilə 18 avqust hər il Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti əməkdaşlarının peşə bayramı günü kimi təsis edilmişdir. Bu, Azərbaycanın müstəqillik və dövlətçilik uğrunda apardığı mübarizənin rəmzi, Vətən sərhədlərini canı və qanı bahasına qoruyanların şərəfli peşəsinə dövlət səviyyəsində verilən ali dəyərin təzahürüdür.

**(davamı 5-ci səhifədə)**

# Azərbaycan sərhədçisi Vətənə xidmətdən qürur duyur

(əvvəli 1-ci səhifədə)

1918-ci il mayın 28-də müstəqilliyini elan edən AXC qarşısında duran ən vacib vəzifələrdən biri milli təhlükəsizliyi təmin etmək, ölkənin iqtisadi maraqlarını qorumaq və suverenliyi möhkəmləndirmək idi. Bu istiqamətdə atılan ilk addımlardan biri, Azərbaycan hökumətinin 22 iyun 1918-ci il tarixli qərarı ilə Poylu stansiyasında strateji əhəmiyyətli malların, xüsusilə ərzağın respublikadan kənara qanunsuz daşınmasının qarşısını almaq məqsədilə ilk sərhəd postunun yaradılması oldu. Ardınca Salahlı, Şıxlı və digər sərhəd məntəqələri də təsis edildi. Həmin dövrdə yeni yaradılan sərhəd postlarının əsas funksiyası qaçaqmalçılıqla mübarizə və respublikanın milli sərvətlərini qorumaq idi.

Sərhəd mühafizə sisteminin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində ən mühüm addım 18 avqust 1919-cu ildə atıldı. Həmin gün Cümhuriyyət parlamenti tərəfindən "Azərbaycan Respublikasının gömrük baxımından sərhəd mühafizəsinin təsis edilməsi haqqında" qanun qəbul edildi. Qanuna əsasən Hərbi Nazirliyin tərkibində ilk Sərhəd Qoşunları dəstəsi yaradıldı və əlavə olaraq 99 sərhəd mühafizə postunun təsis edilməsi nəzərdə tutuldu. Bu tarixi sənəd müstəqil Azərbaycanın sərhəd mühafizə sisteminin institusional əsaslarını qoydu. Lakin Cümhuriyyətin ömrünün qısa olması, xarici hərbi müdaxilə və daxili çəkişmələr səbəbindən bu istiqamətdə başlanılan işlər tam həcmdə həyata keçirilə bilmədi və 1920-ci ilin aprelində Cümhuriyyətin süqutu ilə milli sərhəd mühafizəsi sistemi də fəaliyyətini dayandırdı.

Sovet İttifaqı dövründə Azərbaycanın sərhədləri SSRİ-nin ümumi sərhəd sisteminin tərkib hissəsi kimi qorunurdu. Sərhəd xidməti Dövlət Təhlükəsizlik Komitəsinin bir strukturu kimi fəaliyyət göstərirdi. Azərbaycanın cənubda İran və Türkiyə ilə olan sərhədləri SSRİ-nin cənub sərhədləri hesab edilsə də, şimal və qərb istiqamətlərində demək olar ki, heç bir müasir sərhəd infrastrukturu mövcud deyildi. Həmin dövrdə sərhəd qoşunlarında xidmət edən azərbaycanlı zabit və əsgərlərin sayı olduqca az idi. Yalnız ötən əsrin 70-ci illərində Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə milli hərbi kadrların, o cümlədən sərhədçi zabitlərin hazırlanması istiqamətində məqsədyönlü siyasət həyata keçirilməyə başlandı. Heydər Əliyevin təşəbbüsü ilə respublika büdcəsi hesabına Naxçıvan, Göytəpə, Lənkəran kimi sərhəd dəstələrinin ərazilərində abadlıq işləri aparıldı, yeni yaşayış binaları tikildi və maddi-texniki baza möhkəmləndirildi. Məhz o dövrdə atılan addımlar, yetişdirilən milli kadrlar Azərbaycanın gələcək müstəqilliyi dövründə milli sərhəd mühafizə sisteminin bərpası üçün möhkəm zəmin yaratdı.

XX əsrin sonlarında SSRİ-nin süqutu və Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi ilə qarşıda yeni vəzifələr dururdu. Belə ki, Ermənistanın hərbi təcavüzü, torpaqların işğalı, ölkədə hökm sürən xaos və siyasi qeyri-sabitlik şəraitində dövlət sərhədlərinin mühafizəsi son dərəcə çətinləşmişdi. Müstəqilliyin ilk illərində sərhəd mühafizəsi əsasən şəxsi heyətin fiziki imkanları və Sovet dövründən qalmış köhnə texniki vasitələr hesabına həyata keçirilirdi. Şimal və şimal-qərb sərhədlərində yeni yaradılan sərhəd məntəqələri çox vaxt vaqonlarda və ya uyğunlaşdırılmış binalarda yerləşirdi. Belə bir şəraitdə, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev ordu quruculuğu ilə yanaşı, milli sərhəd mühafizə sisteminin yaradılmasını da dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirdi. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanın sərhəd siyasətinin konsepsiyası hazırlandı, sərhəd qoşunlarının strukturu formalaşdırıldı və fəaliyyətinin hüquqi əsasları yaradıldı.

Ümummilli Liderin apardığı islahatların məntiqi davamı olaraq 31 iyul 2002-ci il tarixli Fərmanla Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunları İdarəsinin əsasında mərkəzi icra hakimiyyəti orqanı statusuna malik Dövlət Sərhəd Xidmətinin (DSX) yaradılması Azərbaycan sərhədçilərinin fəaliyyətində keyfiyyətcə yeni mərhələnin başlanğıcı oldu. Bu addım dövlət sərhədlərinin mühafizəsinin Azərbaycan dövləti üçün xüsusi əhəmiyyət kəsb etdiyini və bu sahəyə diqqətin ən yüksək səviyyədə olduğunu nümayiş etdirdi. Məhz Heydər Əliyevin müəyyən etdiyi strategiya əsasında DSX çevik, mütəşəkkil, yüksək nizam-intizama və döyüş hazırlığına malik, müasir çağırışlara cavab verməyə qadir olan quruma çevrildi.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Dövlət Sərhəd Xidmətinin inkişafı daha da sürətləndi. Son illər ərzində dövlət başçısının diqqət və qayğısı nəticəsində DSX-nin maddi-texniki bazası əhəmiyyətli dərəcədə gücləndirilmiş, müasir silah və texnika ilə təchizatı həyata keçirilmişdir. Yeni sərhəd dəstələrinin və zastavaların istifadəyə verilməsi şəxsi heyətin xidməti və sosial-məişət şəraitinin köklü şəkildə yaxşılaşdırılması istiqamətində kompleks tədbirlər görülmüşdür. Prezident İlham Əliyevin dəfələrlə sərhəd bölgələrinə səfər etməsi sərhəd zastavalarında və hərbi hissələrdə şəxsi heyətlə görüşməsi, onların xidməti ilə yerində tanış olması Ali Baş Komandanın sərhədçilərə olan yüksək etimadının və qayğısının bariz nümunəsidir.

Müasir dövrdə Dövlət Sərhəd Xidməti həm quru sərhədləri, həm də Azərbaycanın Xəzər dənizindəki dəniz sərhədlərinin və hava məkanının etibarlı mühafizəsini də yüksək səviyyədə təmin edir. Prezident İlham Əliyevin sərəncamı ilə 2005-ci ilin fevralında yaradılan Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi qısa müddət ərzində böyük inkişaf yolu keçərək Xəzər dənizində ölkənin milli və iqtisadi maraqlarını qorumağa qadir peşəkar quruma çevrilmişdir. Bu gün Sahil Mühafizəsi mükəmməl naviqasiya, rabitə sistemləri, müasir silahlar, o cümlədən raket kompleksləri ilə təchiz edilmiş sərhəd gözətçi gəmilərinə malikdir. DSX-nin Sahil Mühafizəsi dənizdə qaçaqmalçılıq, qeyri-qanuni miqrasiya, narkotik vasitələrin dövriyyəsi, terrorçuluq və digər transmilli cinayətkarlıq növlərinə qarşı effektiv mübarizə aparmaqla yanaşı, Xəzərdəki neft-qaz infrastrukturunun təhlükəsizliyinin təmin edilməsində də mühüm rol oynayır və bir neçə mürəkkəb axtarış-xilasetmə əməliyyatını uğurla həyata keçirmişdir.

Sərhəd mühafizə sisteminin təkmilləşdirilməsində kadr hazırlığı məsələsi xüsusi əhəmiyyət kəsb edir. Bu zərurəti nəzərə alan Prezident İlham Əliyevin 12 iyun 2007-ci il tarixli Sərəncamı ilə Dövlət Sərhəd Xidməti Akademiyasının yaradılması bu sahədə yeni dövrün əsasını qoydu. Akademiya DSX-nin yüksək ixtisaslı, Vətənə və dövlətə sadiq, müasir hərbi biliklərə yiyələnmiş zabit kadrların hazırlanmasını təmin edən xüsusi təyinatlı ali hərbi təhsil müəssisəsidir. Akademiyanın məzunları bu gün Azərbaycan sərhədlərinin müdafiəsində şərəflə xidmət edirlər.

44 günlük Vətən müharibəsi Azərbaycanın hərb tarixinin ən şanlı səhifələrindən birini yazmaqla yanaşı, Dövlət Sərhəd Xidmətinin də yüksək döyüş qabiliyyətini və peşəkarlığını bütün dünyaya nümayiş etdirdi. Müharibənin ilk günlərindən etibarən Azərbaycan sərhədçiləri Ali Baş Komandanın rəhbərliyi ilə döyüş əməliyyatlarında fəal iştirak etdilər. DSX-nin bölmələri Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlərdə böyük şücaət və qəhrəmanlıq nümunələri göstərdilər. Müharibə zamanı DSX-nin tətbiq etdiyi "Harop", "Quzğun" və "Hermes" kimi müasir pilotsuz uçuş aparatları düşmənin hərbi texnikasının, komanda-idarəetmə məntəqələrinin və canlı qüvvəsinin məhv edilməsində həlledici rol oynadı. Xüsusilə, sərhədçilərin Füzuli rayonu ərazisindəki təmas xəttindən Ermənistanla dövlət sərhədinədək olan böyük bir ərazini, o cümlədən 24 saat ərzində 105 kilometr məsafəni ildırımsürətli hücumla azad etməsi hərb sənətimizin parlaq nümunələrindən oldu. Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsinin işğaldan azad edilməsi və qədim Xudafərin körpüsü üzərində üçrəngli bayrağımızın ucaldılması ilə Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində tarixi addım atıldı. Vətən müharibəsində göstərdikləri igidliyə görə yüzlərlə sərhədçi dövlətin ali mükafatları ilə təltif edildi, onların qəhrəmanlığı xalqımızın yaddaşına əbədi həkk olundu.

İşğaldan azad edilmiş ərazilərdə, xüsusilə Ermənistanla dövlət sərhədində qısa müddət ərzində yeni sərhəd zastavalarının qurulması, müasir tələblərə cavab verən sərhəd mühafizə infrastrukturunun yaradılması DSX-nin qarşısında duran mühüm vəzifələrdən idi və bu vəzifə uğurla yerinə yetirilməkdədir. Bu gün Azərbaycan sərhədçiləri işğaldan azad edilmiş torpaqlarda, mürəkkəb relyef və iqlim şəraitində Vətən sərhədlərini sayıqlıqla qoruyurlar.

Dövlət Sərhəd Xidməti həmçinin beynəlxalq əməkdaşlıq sahəsində də fəal iştirak edir. Qurum NATO, MDB Sərhəd Qoşunları Komandanları Şurası, Beynəlxalq Miqrasiya Təşkilatı kimi beynəlxalq təşkilatlarla, eləcə də qonşu və digər tərəfdaş ölkələrin sərhəd mühafizə orqanları ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq transmilli cinayətkarlığa, terrorizmə, narkotiklərin qanunsuz dövriyyəsinə və qeyri-qanuni miqrasiyaya qarşı mübarizədə təcrübə mübadiləsi və birgə fəaliyyətlərin həyata keçirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycan sərhədçiləri müstəqil Azərbaycan Respublikasının dövlət sərhədlərinin etibarlı mühafizəsi kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirirlər. Onların fədakarlığı, peşəkarlığı və Vətənə sadiqliyi sayəsində Azərbaycanın sərhədləri etibarlı əllərdədir və bu, ölkəmizin davamlı inkişafının, sabitliyinin və təhlükəsizliyinin mühüm təminatlarından biridir. Azərbaycan sərhədçisi hər an Ali Baş Komandanın əmrlərini layiqincə yerinə yetirməyə, dövlətimizin suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa hazırdır.







**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**